**Bütün növ lotereyaların buraxılışı, təşkili və keçirilməsi qaydalarının təkmilləşdirilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI**

Bütün növ lotereyaların buraxılışı, təşkili və keçirilməsi qaydalarının və bu sahədə dövlət nəzarətinin təkmilləşdirilməsi məqsədi ilə qərara alıram:

I. "Qiymətli kağızlarla fəaliyyət sahəsində bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 08 noyabr tarixli 202 saylı Fərmanı ilə təsdiq edilmiş "Bütün növ lotereyaların buraxılışı, təşkili və keçirilməsi fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi" Qaydalarında aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1-ci bölmənin 1.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qaydalara əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (bundan sonra - "QKDK") tərəfindən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərə (bundan sonra - "ərizəçilər") verilən lisenziya müstəsna fəaliyyət növü kimi bütün növ lotereyaların buraxılmasına, təşkilinə və keçirilməsinə icazə verən rəsmi sənəddir";

1-ci bölmənin 1.3-cü bəndinin 2-ci abzasından "və fiziki" sözləri çıxarılsın;

2-ci bölmənin 2.1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2.1.1. Lisenziya almaq üçün ərizə. Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, hesablaşma hesabından nömrəsi və bankın adı";

2-ci bölmənin 2.1.4-cü bəndi çıxarılsın;

2-ci bölmənin 2.1.7-ci bəndinə aşağıdakı məzmunda onuncu, on birinci və on ikinci abzas əlavə edilsin:

"- bank tərəfindən verilmiş zəmanət məktubu;

-lotereyanın əhatə etdiyi ərazi;

-lotereyanın nümunəsi";

2-ci bölmənin 2.4.4-cü bəndi çıxarılsın;

2-ci bölmənin 2.6-cı bəndinin 1-ci və 2-ci abzası aşağıdakı redaksiyada verilsin:

"2.6. Hüquqi şəxs ləğv edildikdə ona verilən lisenziya öz qüvvəsini itirir.

Hüquqi şəxs yenidən təşkil edildikdə, onun adı dəyişdirildikdə və lisenziya itirildikdə ərizəçi 5 (beş) gün müddətində lisenziyanın yenidən rəsmiləşdirilməsi üçün ərizə təqdim etməlidir";

3-cü bölmənin 3.1.2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.2. Lisenziya verilən hüquqi şəxsin adı və hüquqi ünvanı";

3-cü bölmənin 3.1.3-cü bəndi çıxarılsın;

6-cı bölmənin 6.1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"6.1.3. Hüquqi şəxsin müflisləşməsi faktı Azərbaycan Respublikasının qanunvericiliyi ilə təsdiq edildikdə";

6-cı bölmənin 6.3.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"6.3.5. hüquqi şəxs ləğv edildikdə".

II. Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 1 iyul 2000-ci il**

**№ 359**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2879-2880.**